# Konsept tipləri və konseptual təhlil mərhələləri

**Səadət Vəliyulla qızı Novruzova**
*Odlar Yurdu Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**E-mail:** novruzovaseadet@gmail

**Rəyçilər:** filol.ü.e.d., prof. F.F. Cahangirov,
filol.ü.f.d., dos. K.A. Cəfərova

**Açar sözlər:** konsept, konsept tipləri, konseptual təhlil mərhələləri, kosmik konseptlər, sosial konseptlər

**Ключевые слова:** концепт, типы концептов, этапы концептуального анализа, пространственные концепты, социальные концепты

**Key words:** concept, types of concepts, stages of conceptual analysis, spatial concepts, social concepts

Konsept - kollektiv şüurun diskret vahididir. Konsept insanın bilik və təcrübəsini inikas etdirən, mürəkkəb, çoxplanlı struktur təşkil edən mental vahiddir və hər bir dil daşıyıcılarının şüurunda milli-mədəni təsəvvürlər sistemidir.

Konsept linqvokulturologiya kimi deyərkən onun «mədəniyyətin insan şüurunda əsas özəyi» olması dərk edilir. Konsept koqnitiv dilçiliyin əsas vahidlərindən biridir. Yeni olduğu üçün linqvokonseptologiya elmində xeyli sayda mübahisəli məsələlər ortaya çıxır, immanent mahiyyət, konsept tipologiyası onun mürəkkəb və çoxyaruslu strukturu, mental kimi problemləri hələ də öyrənilməmiş qalmaqdadır.

Konseptlər sosial inkişafla bağlı meydana çıxır. Bu inkişafla əlaqədar müxtəlif konsepsiyalar irəli sürülür. Yeni baxışlar tarixə, cəmiyyətə ciddi elmi şəkildə yanaşmaq imkanı yaratmışdır. Təbiəti dərk edən insan cəmiyyətinin qavranılmasına da şamil edilmişdir. İnsan haqqında (ontologiya), idrak haqqında (qnoseologiya) təlimlərdə insan problemi, xüsusilə onun mahiyyəti, təbiətdə tutduğu yeri, cəmiyyətdə mövqeyi, rolu məsələləri barədə təsəvvürlərin tarixi qədimdir. İnsan bir konseptual varlıq kimi diqqət mərkəzində olmuşdur. İnsan haqqında mövcud təsəvvürlər başlıca olaraq hipotez və fərziyyələrə əsaslanmışdır. İnsan haqqında müasir elmi təsəvvürlər 300-400 il bundan öncə formalaşmağa başlamışdır. Bu təsəvvürlər koqnitiv davranış tələb etmişdir. Bu davranış isə mental təsəvvürlərə əsaslanmışdır. *«Mental», «mentalitet»* latın mənşəli olub, ağıl, təfəkkür, mənəvi tərz deməkdir. Həmin anlayış altında fərdi və kollektiv şüur, o cümlədən təhtəlşüurun hərtərəfli səviyyəsi nəzərdə tutulur. O, fərdin yaxud sosial qrupun hərəkət etmək, fikirləşmək, düşünmək, dünyanı müəyyən tərzdə qavramaq qaydaları və göstərişlərinin toplusudur. Əgər şəxsiyyətin mentalitetini, düşüncəsini nəzərdə tutsaq, o, insanın sosial mühiti, mədəniyyəti, ənənələri əsasında formalaşır və öz növbəsində onlara təsir edir. İnsanın mentaliteti öz başlanğıcını xalqın tarixi keçmişin sosial-mədəni ənənələrindən, dəyər örnəklərindən götürür. «Koqnitiv linqvistika özü mental yanaşmadır, ona görə ki, bu baxışda dilin mental xüsusiyyəti mövcuddur və dil koqnisiyanın tərkib hissəsi kimi təsvir olunur. Beləliklə, mentalitet reallığı qavramanın və dərk etmənin özünəxas yoludur, bu da müəyyən fərdlərə, sosial və etnik qruplara məxsus olan şüur stereotipinin toplusu ilə müəyyənləşir» (1, s. 53).

Dilin geniş və ciddi tədqiq olunası sahələrindən biri də konseptdir. «Hər bir elm sahəsinin

öz vahidi var. Koqnitiv linqvistikanın da ən kiçik vahidi konseptdir. Konseptin mental və neyroloji əsasları mövcuddur. Bu əsaslara görə insan öz aləmini dildə ifadə və təzahür etdirir (2, s. 4).

Konsept termin-anlayışı bir sıra müəlliflər tərəfindən definisiya olunmuşdur. Konsept yaddaşın, mental leksikonun, konseptual sistemin və beyin dilinin, dünya mənzərəsinin, biliklər kvantının əlverişli vahididir (3, s. 90); «Konsept təcrübənin insan yaddaşında saxlanılan mənaya malik, dərk olunan tipikləşmiş fraqmentlərin mental strukturudur» (4, s. 59); "konseptin əsas funksiyası təfəkkür prosesini təmin etməkdir. Konsept informasiyanı saxlayır, ancaq onun yaddaş vahidi olmasını hələ sübut etmək lazımdır" (1, s .35).

M.V. Pimenova məqaləsində konsept tiplərini konseptual tədqiqat mərhələləri üzrə müəyyənləşdirmişdir. Onun fikrincə, konseptual təhlilin istiqamətləri iki mərhələdə funksionallaşır: 1) dərketmə operativ (praktik, əməli, canlı) vahid kimi; 2) dil işarəsi dildə mental ifadə vasitəsi kimi (5, s. 127-131).

F. Veysəllinin fikrincə, koqnitiv strukturların ən kiçiyi konseptlərdir. Ümumi və yoxlanılmış mənada konsept dünya haqqında bilikləri yadda saxlamaq funksiyasını yerinə yetirir (2, s. 31). Təbii ki, bu mövzu rus-Avropa dilləri ilə müqayisədə Azərbaycan dilçiliyində nəzəri dilçiliyin tələbləri mövqeyindən araşdırılmamışdır. Bu sahədə rus dilçiliyində müəyyən aspektlərin tədqiqinə rast gəlmək olur. A Babuşkin və M. Pisenova bu məsələnin nəzəri əsaslarını tədqiqat obyekti seçmişlər. Bu əsərlərdə öz yerini tapa bilmişdir (6; 5, s. 127-131).

Bu mənada A. Babuşkinin fikirləri çox aktual səslənir, müəllif konsept tiplərinin tədqiqini intensivləşdirmək məqsədilə çıxış etmiş və bir sıra mülahizələr irəli sürmüşdür.

Konsept tiplərinin sistemli təsnifatı həm də ümumiyyətlə konseptuallaşma prosesinin axıra qədər həll olunmamış bir sıra məsələlərinin və parametrlərinin üzərinə işıq salır, onların tiplərini müəyyənləşdirməyə yardım edə bilir. Məsələ burasındadır ki, konsept tiplərini struktur-semantik zəminində tədqiq etmək mümkündür. Və bu məqamda göstərilən konsept tiplərinin semantik strukturu və struktur semantikası kimi kateqoriyaların sistemli araşdırılması vəzifəsi aktuallaşır. Elementar konseptuallaşma zəminində bu məsələ öz qoyuluşunu və spesifik həllini tapmaqdadır. Bununla belə, konsept tiplərinin semantik strukturu ilə əlaqədar həllini gözləyən məsələlərdən hələ də qalmaqdadır.

Konsept tiplərinin semantik strukturunu müəyyənləşdirməkdən ötrü bunların növləri arasında təyin olunan diferensiasiyanı aparmaq, göstərilənlərin məntiqi və ya mətn xarakterini təyin etmək lazım gəlir. Konsept tiplərinin semantik strukturunun əsasını məntiqi-dialektik əlaqələr təşkil edir, digərləri köməkçi rol oynayır. Bu istiqamətdə konsept tiplərinin ümumi nəticəyə gətirə biləcək təhlili aparılmamışdır. Həmin baxımdan aşağıdakı məsələlər mütləq aydınlaşdırılmalıdır:

Anlayış konsept tipi kimi. Anlayış - konsept, mahiyyətcə bir qədər predmet yaxud hadisənin mövcud əlaməti, bu obektivdir, məntiqi məzmunun müəyyənləşdirilməsi deməkdir. Məs.: *chamomile, ox-eye daisy* (*çobanyastıgı (romaşka)* - anlayış kimi. Mürəkkəb çiçəklilər fəsiləsindən xırda sarı çiçəklər açan birillik ot-bitkidir. "Məğrur lalə, xumar nərgiz, həsrət bənövşə, çobanyastığı və başqa çiçəklər səhər nəsiminin ahəngilə yırğalanır…" "Bakı" qəzeti. (7, s. 447).

"*Çobanyastığı tək boynun əyəndə, xəyalıma sən gəldin"* (S.Əhmədli) Yazıçı burada "çobanyastığı" sözünü motivləşdirmiş, onu müqayisə predmeti kimi götürmüş və mədəni mənasını və konnotasiya xüsusiyyətini əks etdirə bilmişdir.

Anlayış ona görə konsept tipidir ki, bu anlayışın söz formasında strukturu və təzahür formaları mövcuddur. Məhz hər bir konsept tipinin tədqiqində bu struktur və təzahür imkanları

nəzərə alınır. Anlayışların mental xüsusiyyətlərinin, stereotiplərinin müəyyənləşdirilməsi onun məzmununu, mədəni mənalarını və konnotasiyalarını, başqa sözlə, universal və ən spesifik cizgilərini qeydə almaqdır. Həmin prosesdə anlayışın strukturu, təzahür formaları və definisiyası açılır. Konsept tipi kimi anlayışın hansı milli-mədəni səviyyəsininin kateqoriyallaşmasından asılı olmayaraq, onu konseptual şəraitdə təyin edə biləcək özəlliklərin cəmini seçmək lazım gəlir. Linqvokulturologiyada konseptləşmiş anlayışa kafi və zəruri kimi həlledici əlamətlərin fərqləndirilməsi əsas götürülür. Həmin keyfiyyətlər bir tərəfdən anlayışın konsept tipi kimi digər anlayışlara yaxınlığını müəyyən edir, başqa bir tərəfdən isə həmin anlayışı ona yaxın olanlardan fərqləndirir. Misal üçün: *«zona»* konseptini götürək:

"Zona" - ümumi ekoloji göstəricilər, xüsusi iqlim tipi, bitki aləmi, torpaq örtüyü, heyvanat aləmi ilə xarakterizə olunan ərazini ifadə edir. «Buzlaq zona» - daimi buzlaqlarla örtülmüş, ali bitki örtüyünə malik olmayan ərazi. «Meşəlik zona» - müxtəlif tipli meşələrlə örtülmüş ərazidir. «Meşə-tundra zonası» - tropik qurşağa daxil olan ərazidir. «Səhra zonası» - quru kontinental iqlimə malik olan, çay sistemi olmayan, bitki örtüyü çox zəif inkişaf etmiş ərazidir. Buradakı «zona» anlayışın konseptual mənası birincidə ümumi məzmun kəsb etməsi ilə bağlıdır, cinsi müəyyənləşdirir. Başqa anlayışlar isə sözügedən anlayışın növlərini təzahür etdirir.

Anlayış konseptinin eyni yaxud yaxın xüsusiyyətlər kəsb etməsi onları bir qrupda birləşdirməkdə baza rolunu oynayır.

Konseptologiya bir elm sahəsi olmaqla anlayışlar, onların məzmun və mahiyyəti, əlamətləri, sistemləri və təsnifatları haqqında, anlayışların təsbit edilməsi, onların təyinatları barədə anlayışları ifadə etmək üçün dilin məntiqi vasitələri olmaq etibarilə sözlər haqqında biliklərin cəmidir. Dərketmə predmeti bu cür sıralanır: *anlayış-təyinat-termin (söz)- indeksi.*

Anlayışın konsept tipi kimi təyin olunması müəyyən məqsədlər üçün aparılır. Lakin bütün hallarda anlayışın aşkar olaraq müəyyənliyinə üstünlük verilir. Konsept tipi kimi anlayışların dəqiq sərhədləri müəyyənləşdirilməlidir. Məs.: "*qadın"* konseptində onun təyini zamanı qüsurlara rast gəlmək olur. Yəni, bu prosesdə kafi və zəruri əlamətlər buraxılır, izafi əlamət əks olunur, əlavə şərh tələb edən digər anlayışlardan istifadə edilir, qapalı dairə şərti ödənilmir və s.

Anlayışların konsept məkanında həcmini, onun mental mahiyyətini, onların iyerarxik ardıcıllığını müəyyənləşdirmək lazım gəlir. «Bu nəzərdə tutulan konseptin linqvokulturoloji əlamətlərini meydana çıxarır. Burada xalqın dünyagörüşü mühüm rol oynayır. Onun mentaliteti və dəyərləri üzə çıxarır» (8, s. 116)

Həmin dəyərlərin ortaya çıxarılmasında müxtəlifsistemli dillərin müqayisəsi yolu da üstün proritetlərdəndir. Anlayış və dəyərlər konseptin başlıca əlamətlərini özlərində əks etdirmək gücünə malikdir. Milli-mədəni mətnlərdə qadın konsepti ilə bağlı mənalar mental prosesə daxil olur, bu «bilavasitə şüurda gedən prosesdirsə və onu təzahür etməyincə qiymətləndirmək mümkün deyilsə, konkret konseptin təzahürlərinin öyrənilməsi həm anlayışın özünə, həm də daşıdığı mənaların məcmusuna aydınlıq gətirməyə imkan verər. Bu baxımdan «qadın» konsepti xüsusi maraq kəsb edir. Bəşər tarixinin ən qədim konseptlərindən biri olan «qadın»ın cəmiyyətdə, daha geniş götürdükdə, insan birliyində yeri bir tərəfdən daim dəyişmiş, digər tərəfdən isə müəyyən funksiyaları baxımından ya az dəyişmiş, ya da dəyişməmişdir» (9, s. 4).

Təsəvvür konsept tipi kimi. Bunu ideya konsepti də adlandırmaq olar. «Bir şey haqqında dumanlı təsəvvür» = «to have an idea a notion. Təsəvvürə gətirmə, gözünün qabağına gətirmə, təsvir etmə, onun haqqında anlayış, məlumat vermək; xəyalına gətirmək; bu xüsusi obraz hissidir predmet-əşya və hadisələrin müxtəlif növündə; məs.: ümumi ev-hər hansı bir yaşayış obyekti, damın örtüyü, pəncərəsi, qapısı olan durumda. Təsəvvürəgəlmə, beləliklə, predmet

və ya hadisənin daxili əlamətinin məcmusunu, cəmini əks etdirir. Məsələn, *«qonaq» (guest, visitor)* leksik vahidinin mental, mədəni mənaları necə təsəvvür olunur? Paremiyalara diqqət edək: «Qonaq evin gülüdür», «Qonaq evin yaraşığıdır», «Qonaqsız ev - dəyirmansız daş kimidir»; Qonaq-qaralı ev (hospitable, household)

Semantik sahədə *qonaq* sözünün linqvokulturoloji perspektivi: Qonaq sözü atalar sözü və məsəllərin tərkibində, qonaqlama sözünün milli-mədəni aspektləri sosial baxımdan genişdir.

Paremiya qruplarında işlənir. *Qonaq* açar söz kimi aktiv olaraq istifadə olunur. Frazeoloji vahidlərin tərkibində: qonaqlı ev, aforizmlərin tərkibində qonağı ağırlamaq; qonaq evi (qostinisa, hotel), qonaq bileti, qonaqsevərlik, qonaqcıllıq, qonaqpərəstlik, qonaqpərvərlik, qonaqcıl, qonaq otağı, qonaq otağına məxsus mebel, sovqat, hədiyyə, pay (şirniyyat), mehmanxana, qonaq qalmaq, qonaq olmaq, qonaqlıqdan, qonaqlama, qonaq qadın (qız), ritual qonaqlama və s.

«Qonaq» söz-konsepti ilə bağlı linqvokulturoloji mənalar: qonaqlamaq, mehmanxana, komfort (rahat) otaqlar, defisit mehmanxana, bahalı mehmanxana, komfortmebel və s. Həmin konseptlərin strukturu, göründüyü kimi, müxtəlifdir.

Bir dilin bu konseptini digər dildəki ilə qarşılaşdıranda hər bir dilə xas milli-mədəni xüsusiyyətlər meydana çıxır. Təkcə leksik vahidlərin deyil, frazeoloji tərkiblərin, cümlələrin də quruluşunda bu vahidlər milli-mədəni informasiyaları ötürür. Bu yolla sözügedən konsept öz ətraf vahidləri ilə mədəniyyət elementlərini dildə əks etdirir.

Sxem konsept tipi kimi. Sxem - bu, predmet və hadisənin təfəkkür, düşüncə nümunəsidir, onun məkanı-kontur xarakteri mövcuddur. Məs.: insanın ümumi konturu (çevrə, dairə), kontur şəklində olan, kontur şəklində olan qırıq-qırıq, nöqtələrdən ibarət xəttli ev, hərəkətin trayektoriyası. Sxem abstraksiyanın dərəcəsini təyin edir, müəyyənləşdirir.

Kosmik konseptlər. Konseptin tiplərindən biri də kosmik konseptlərdir. *«Kosmik» (yun. osmikos).* Kosmosa, fəzaya aid olan, kosmosda olan, kainatla bağlı olan. Kosmik uçuşlar. Kosmik fəza: geofiziki raketlərin köməyi ilə atmosferin yuxarı qatlarının və kosmik fəzanın tədqiqi davam etdirilir. İlk planetlərarası stansiyanın uçuşu uzaq kosmik rabitə mərkəzindən idarə olunur. Kosmik gəmi- kosmosu tədqiq etmək üçün kosmosa buraxılan xüsusi cihaz və qurğularla təchiz olunmuş gəmi növü. Kosmik toz-ulduzlararası fəzada dumanlıqlar əmələ gətirən ən xırda zərrəciklər. Kosmik şüuallar - fəzadan atmosferin yuxarı qatlarına düşən şüalar. Planetlərarası uçuş xəttində günəş plazmasının öz kosmik şüaların xarakteristikaları ölçüləcəkdir. Kosmik cisimlər - meteoritlər və ya onların qəlpələri; Kosmos - aləm, bütün kainat. Kosmosun fəthi. Kosmosa uçuş.- Yeni gəminin buraxılması kosmosda kompleks elmi-texniki tədqiqatlara dair proqramın mühüm mərhələsidir (10, s. 98).

Bu konseptin adlandırma sıxlığı *kosmoqoniya, kosmoqonik, kosmodrom, kosmoloji, kosmologiya, kosmonavt, kosmonavtika* leksik-terminoloji vahidlərində də göstərir və bu anlayışların sosial mühitdə qəbul edilmiş dəyərlər sistemi mövqeyini açır. Adlandırma sıxlığının çoxluğu həmin konseptin və ətraf sözlərin linqvokulturoloji birliyinədən ötrü daha çox gərəklidir.

Sosial konseptlər. Sosial konseptlər sosial hadisə və prosesləri hərtərəfli əhatə edir. Ən ümumi formada həmin konseptin məzmun və mahiyyəti budur ki, bəşər tarixi bir-birilə bağlı olmayan insan sivilizasiyalarının cəmindən başqa bir şey deyildir. Sosial konseptlər mədəni-tarix tip yaradır. Mədəni-tarixi tiplərin yaxud sivilizasiyaların inkişafı üçün müəyyən şərtlər gözlənilməlidir. Sosial birliklərin bir-biri ilə ünsiyyətə girməsi üçün bir neçə dilin mövcud olması vacibdir: siyasi müstəqilliyin olması; hər bir mədəni-tarixi tipin orijinallığı.

Beləliklə, insan təcrübəsinin kateqoriyallaşması və konseptuallaşması məsələsi də koqnitiv linqvitstikanın mərkəzi problemlərindəndir. Konseptuallaşma insanın prenatal dispozisiyasını

(doğumdan əvvəlki narahatlığını) göstərir, mental konsept isə insanın ətraf aləmlə bağlı təcrübəsini xarakterizə edir. Kateqoriyallaşma fikir predmetlərinə aiddir. Düşüncənin özü düşüncə predmetlərinin kateqoriyallaşması deməkdir.

**Məqalənin aktuallığı.** Konsept tiplərinə ümumiləşmiş şəkildə konseptsfer də deyilir. Bu tiplər konseptlərin nizamlanmış cəmi, düşüncənin informasiya ilə yüklənmiş bazasıdır. Bu tiplər xarici aləmin şəkil, sxem, anlayış, freym, ssenari, qeştalt və s. də mövcud olan, mücərrəd məzmun və ümumiləşdirici keyfiyyətlərə malik əlamətləri inikas etdirən konseptlərdən ibarət təfəkkür sahəsini təşkil edir. Konsept tipləri arasında ciddi sərhəd müəyyənləşdirmək o qədər də asan deyil. Məqalədə bu mövzuya həsr edildiyindən onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Məqalədə bəhs olunan konsept tiplərinin mühüm məntiqi-predmet məzmunu böyükdür və onların müəyənləşməsində linqvokulturoloji amillər mühüm rol oynayır. Təhlil obyekti olan dil vahidlərində şərtəndirilmiş xalq mədəniyyəti faktoru daha geniş şəkildə əks olunmuşdur, bunlarda ümumilikdə aparılan tədqiqatın elmi yeniliyini təşkil edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə sosial və kosmik konseptləri koqnitiv vahid və struktur kimi tədqiq edilir, bir konsept tipi kimi araşdırılır, onun struktur-semantik, leksik-koqnitiv əsasları müəyyənləşdirilir. Məqalədən bakalavr və magistr pilləsində təhsil alan tələbələr, konsept tipləri ilə məşğul olanlar həm nəzəri, həm də praktik baxımdan faydalana bilər.

## Ədəbiyyat

1. Попова З.Д., Стернин И.А. Когнитивная лингвитика. Восток-Запад, 2007.
2. Veysəlli F.Y. Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri. Bakı: Mütərcim, 2015.
3. Кубрякова Е.С. Части речи с когнитивной точки зрения. М., 1977.
4. Карасик В.И. Ввведение в когнитивную лингвистику. М., 2004.
5. Пименова М.В. Типы концептов и этапы концептуалтного анализа. Вестник КГУ, кн.2, т.2, 2013, с.127-131
6. Бабушкин А.П. Типи концептов в лексико-фразеологической семантике языка. Воронеж: Изд-во Ворон. Гос. Ун-та, 1996.
7. Azərbaycan dilinin izahlı lüğəti. IV cild, Bakı: Elm, 1987.
8. Иванова С.В. Культурологический аспект языковых единиц. Уфа, 2002.
9. Əhmədova Ü.Müxtəlifsistemli dillərdə «qadın» konseptinin linqvokulturoloji xüsusiyyətləri. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanı avtoreferatı, Bakı, 2018.
10. Azərbaycan dilinin izahlı lüğəti. III cild, Bakı: Elm, 1983.

**С.В. Новрузова**

## Виды концептов и этапы концептуального анализа

## Резюме

Вопрос о концепте и его типах еще не нашел своего решения в сравнительном плане. Выявление национально-культурной и ментальной специфики типов концепта – од-

на из важнейших проблем, стоящих перед наукой лингвокультурологии.

В настоящее время в когнитивной лингвистике существуют разные типы единиц мышления - ментальные события, концептуальные типы, создающие конкретно-эмоциональные образы. Отражающие знания и информацию, и возникающие в этом процессе типы концептов, подразделяются на две группы: «вербальные и невербальные».

В данной статье на фоне размышления рассматриваются концепты «обычного уровня» и «высокого уровня».

В статье социальные и пространственные концепты исследуются как когнитивные единицы и структуры. В статье рассматривается тип концепта, определяются его структурно-семантические, лексико-когнитивные основы. Кроме того, определяются концептуальный объем и схема таких концептуальных типов как понятие и воображение.

**S.V. Novruzova**

## Types of concepts and stages of conceptual analysis

## Summary

The question of the concept and its types has not yet been resolved in a comparative sense. Revealing the national-cultural and mental specifics of concept types is one of the most important problems facing the science of cultural linguistics.

Currently, in cognitive linguistics, there are different types of units of thinking mental events, conceptual types that create specific emotional images.

Reflecting knowledge and information, and the types of concepts that arise in this process, are divided into two groups: “verbal and non-verbal”.

This article explores the concepts of "normal level" and "high level". The article also explores social and spatial concepts as cognitive units and structures.

The article examines the types of concept, defines its structural-semantic, lexical-cognitive foundations. In addition, the conceptual scope and schema of such conceptual types as concept and imagination are defined.

**Redaksiyaya daxil olub:** 24.08.2021